AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

FİRUZƏ ƏDALƏT QIZI RZAYEVA

# MOTİVASİYA TƏLƏBƏLƏRDƏ İNGİLİS DİLİNƏ MARAĞIN YARADILMASININ VASİTƏSİ KİMİ (DIL FAKÜLTƏLƏRININ I-II KURSLARININ MATERIALLARI ƏSASINDA)

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(İngilis dilinin tədrisi metodikası)

pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2013

İş Azərbaycan Dillər Universitetinin Xarici dillərin tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika üzrə elmlər doktoru
Gülnar Cabbar qızı Hüseynzadə

Rəsmi opponentlər: pedaqogika üzrə elmlər doktoru
Dilarə Əbrül qızı İsmayılova

pedaqogika üzrə fəlsəfə doktoru
Münəvvər Firudin qızı Məmmədova

Aparıcı təşkilat: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Ali və orta ixtisas təhsilinin nəzəri problemləri şöbəsi

Müdafiə __30 / 03____ 2013-cü il saat _______da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küç., 60

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___________________________ 2013-cü ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Sevda Davud qızı Vahabova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Dünyəvi inteqrasiya proseslərinin nəticəsi olan qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı dövr Azərbaycan Respublikasında yetişməkdə olan nəslin bütün sahələrdə, xüsusilə də təhsil sahəsində maraqlarını, arzu və tələbatlarını təmin etmək istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Həmin tələblər də öz növbəsində Azərbaycan təhsilinin və elminin qarşısında duran yeni vəzifələri, təlim prosesinin yeni didaktik prinsiplərini və həmin prinsiplərin nəzəri əsaslarını təyin etməli olan tədqiqata açıq istiqamətləri müəyyənləşdirir. Bu ənənə son dövrlərdə aparılan tədqiqat işlərində də açıq şəkildə hiss edilməkdədir.[1] Məhz bu baxımdan tələbələrdə ingilis dilinin təlimi prosesinə marağın yaradılması və təlim prosesinin onların motivləri, maraqları və məqsədləri üzərində qurulması üçün zəruri olan təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının nəzəri əsaslarının yaradılmasına və didaktik üsullarının təyin olunmasına duyulan ehtiyac tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

*Tədqiqatın obyekti* aşağı kurs tələbələrində ingilis dilinə marağın yaradılması zamanı təlim fəaliyyəti motivasiyasının formalaşdırılması prosesidir.

*Tədqiqatın predmeti* aşağı kurs tələbələrində ingilis dilinə marağın yaradılması zamanı təlim fəaliyyəti motivasiyasının formalaşdırılması metodikasının nəzəri və praktiki tədqiqidir.

*Tədqiqat işinin məqsədi* tələbələrdə ingilis dilinə marağın yaradılması üçün təlim fəaliyyəti motivasiyasının formalaşdırılması metodikasının nəzəri əsaslarının müəyyənləşdirilməsi, təcrübədə qoyuluşunun tədqiq olunması və eksperimental şəkildə sınaqdan keçmiş motivasiyaedici çalışmalar sisteminin və didaktik modelin yaradılmasıdır.

*Tədqiqatın fərziyyəsi.* aşağı kurslarda ingilis dili təlimi prosesində tələbələrin motivasiya səviyyəsinin düzgün müəyyənləşməsi və elmi əsaslara

---

[1] Гусейнзаде Г.Дж. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 316 с.; Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya (yaş və pedaqoji psixologiya məsələləri). Bakı: Nurlan, 2007, 700 s.; İsmayılov B. Fransız dilinin aktual sintaksisi və onun tədrisi problemləri. Baki: Nurlan, 2008, 439 s.; Dilara A.Ismailova Teaching English as a Foreign Language (Textbook). Baku: Moutarjim, 2011, 320 p.; Fəhratlı S. Xarici dillərin mənimsənilməsində motivasiya / Xarici dillərin tədrisinin aktual problemləri. IV Respublika elmi konfransının materialları. Bakı: ADU, 2011, s. 207-210.

söykənən motivasiyaedici didaktik üsullardan istifadə olunması səmərəli vasitə kimi tələbələrin motivasiya səviyyəsinin və ingilis dilinə marağın yüksəlməsinə səbəb ola bilər.

Tədqiqatın məqsədinə və fərziyyəsinə əsasən aşağıdakı *vəzifələr* müəyyənləşdirilmişdir:

-tədqiqat mövzusuna dair nəzəri-metodik ədəbiyyatın təhlili;

-təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının psixoloji, metodoloji və didaktik əsaslarının müəyyənləşdirilməsi;

-problem baxımından ali məktəbdə mövcud vəziyyətin öyrənilməsi;

-problem baxımından tədris prosesinin, proqram və dərsliklərin təhlili;

-tələbələrin təlim fəaliyyəti üzrə motivasiya səviyyəsinin göstəricilərinin və motivlərin müəyyənləşdirilməsi üsullarının təyin olunması;

-tələbələrin maraqları əsasında motivasiyaedici çalışmalar sisteminin və didaktik modelin yaradılması və eksperimental yolla aprobasiyası.

*Tədqiqatın metodları.* Tədqiqat işində nəzəri təhlil və tərkib, sosial pedaqoji, eksperimental və riyazi statistik metodlardan istifadə olunmuşdur.

*Tədqiqatın elmi yeniliyi.* İngilis dili fakültəsinin I-II kurs tələbələrində motivasiya səviyyəsinin və ingilis dilinə marağın yüksəlməsinə səbəb olan və elmi əsaslara söykənən yeni didaktik modelin və motivasiyaedici çalışmalar sisteminin işlənib hazırlanması tədqiqatın elmi yeniliyi hesab edilə bilər.

*Tədqiqat işinin nəzəri əhəmiyyəti.* Dissertasiyada aşağı kurs tələbələrində ingilis dilinə marağın yaradılması zamanı təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının psixoloji, metodoloji və didaktik əsaslarının tədqiq olunması onun nəzəri əhəmiyyətini müəyyənləşdirir. Əldə olunan nəticələr xarici dillərin tədrisinin digər müstəviləri, məsələn orta məktəblər, qeyri-ixtisas fakültələri və ya yuxarı kurslar üzrə təlim motivasiyasının formalaşdırılması probleminin tədqiqində nəzəri fikirlərin inkişafına təkan verə bilər. Tədqiqat işində müqayisə olunan və konkretləşdirilən nəzəri yanaşmalardan xarici dillərin tədrisinin digər aspektləri üzrə aparılacaq tədqiqatlarda faydalı mənbə kimi istifadə oluna bilər.

*Tədqiqat işinin praktik əhəmiyyəti.* Tədqiqatın nəticələrindən, təklif edilən eksperimental tədris materiallarından, motivasiya səviyyəsini müəyyənləşdirən sorğu vərəqələrindən, motivasiyaedici çalışmalar sistemindən xarici dillərin tədrisi prosesində, mühazirə və seminar məşğələlərində, elmi-metodiki işlərin hazırlanmasında istifadə oluna bilər.

*Müdafiəyə aşağıdakı müddəalar təqdim edilir:*

1. Təlim motivasiyasının həm təlim fəaliyyətinə xas olan müəyyən struktura və iyerarxiyaya malik motivlərin kompleksi kimi sistematik və statik hadisə olaraq dəyərləndirilməsi, həm də tələbatın dərk olunması anında başlayan və motivin həyata keçirilməsi anında başa çatan bir proses kimi dinamik xarakterə malik prosessual xüsusiyyətinin aşkarlanması;

2. Təlim motivasiyasının strukturunun müəyyən münasibətlər əsasında bir-biri ilə bağlı olan və tabelilik, iyerarxiklik prinsipləri çərçivəsində birləşən amillərin, tələbatların, maraqların, arzuların, məqsədlərin, münasibət və ideyaların kompleksi kimi qəbul edilməsi;

3. Müasir təlim nəzəriyyələri tədris prosesini tələbəyönümlü istiqamətdə müəyyənləşdirdiyi üçün və dərslik də bu prosesin əsas komponenti olduğundan, onun tərtibində motivasiyanın əsas amil kimi nəzərə alınması;

4. Motivlərin yaranması və kompleks şəkildə davranışın sonrakı gedişatını təyin etməsi psixoloji baxımdan istənilən fəaliyyətin ilkin mərhələsi olduğu üçün motivasiyaedici çalışmaların yerinin dərsliklərin başlanğıc hissəsi və dərslərin ilkin mərhələsi kimi müəyyənləşdirilməsi və həmin çalışmaların tərtibində tələbənin tələbatlarını, maraq və emosiyalarını ifadə imkanına malik olması, ətrafında baş verən hadisələrə, real gerçəkliyə yanaşma tərzini və mövqeyini nümayiş etdirə bilməsi, tələbəyə onun bir şəxsiyyət kimi önəmli olduğunu hiss etdirməsi, onun xarakterini və şəxsiyyətini açması, tələbənin öz dünyasına, fərdi reallığına cığır olması, çalışmanın məzmununda tələbənin şəxsi həyatına məntiqi keçidlərin mövcud olması kimi tələblərin nəzərdə tutulması.

*Tədqiqatın aprobasiyası.* Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici dillərin tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəalarının aprobasiyası "Tətbiqi dilçiliyin müasir problemləri" adlı Beynəlxalq elmi konfransda və "Xarici dillərin tədrisinin aktual problemləri" adlı IV Respublika elmi konfransında məruzələr şəklində aparılıb. Tədqiqatın konkret nəticələri ölkəmizdə və xaricdə (Qazaxıstan Respublikası) çap olunmuş 8 elmi məqalə və tezislərdə öz əksini tapıb.

*Dissertasiyanın quruluşu.* Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *Giriş* hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, onun məqsəd və vəzifələri, müdafiəyə təqdim edilən əsas müddəaları, işin fərziyyəsi, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi müəyyənləşdirilir, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın "I-II kurs tələbələrində ingilis dilinə marağın yaradılması zamanı təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının psixoloji, metodoloji və didaktik əsasları" adlanan *birinci fəsli* üç yarımfəsildən ibarətdir.

Motivasiya anlayışı psixoloji ədəbiyyatda orqanizmi fəallığa sövq edən və onun istiqamətini müəyyən edən amillərin sistemi kimi təqdim olunur.[1] Həmin amillər qismində yalnız motivlərin çıxış edə biləcəyi fikrində olan müəlliflər "motiv" və "motivasiya" anlayışlarını bir çox hallarda eyniləşdirir. Belə ki, motivasiya anlayışını tədqiqatçılar həm "konkret bir motiv kimi",[2] həm "motivlərin vahid sistemi kimi"[3], həm də "tərkibində bir-biri ilə qarşılıqlı təsirdə olan və müəyyən məqamlarda hətta kəsişən tələbatları, məqsədləri və maraqları birləşdirən xüsusi sfera kimi"[4] izah edirlər. Bu təriflər motivasiyanın sistemlilik xüsusiyyətini qabardaraq onu subyektin davranış aktlarını müəyyən edən və bir-birindən asılı olan elementlərdən, "müəyyən struktura və iyerarxiyaya"[5] və "bəzi struktur-funksional vahidlərə malik"[6] motivlərdən ibarət sistem kimi təqdim edir.

Motivasiya anlayışının bu cür izahı onu yalnız statik (sabit) hadisə kimi dəyərləndirir. Ancaq elmi-nəzəri ədəbiyyatı daha dərindən təhlil etdikdə

---

[1] Əlizadə Ə.Ə. Pedaqoji psixologiya. II kitab. Bakı: ADPU, 2010, 288 s.; Леонтьев А.А. Потребности, мотивы, эмоции. М.: Издательство МГУ, 1971, 130 с.; Рубинштейн С.Л. Основы общей психологии. СПб: Питер, 2001, 720 с.

[2] Вилюнас В.К. Психологические механизмы биологической мотивации. М.: Изд-во Моск. ун-та, 1986, 206 с.

[3] Додонов Б.И. Структура и динамика мотивов деятельности // Вопросы психологии, 1994, № 4, с. 126-130.

[4] Рубинштейн С.Л. Указ.работа, с. 59

[5] Ковалев В.И., Дружинин В.Н. Мотивационная сфера личности и ее динамика в процессе профессиональной подготовки // Психологический журнал. Т. 3. 1986, № 6, с. 39.

[6] Ивончик Г.Ф. Психологические условия формирования у работающей молодежи положительного отношения к учению: Дис....канд.псих.наук. Киев, 1981, с. 42.

aydın olur ki, motivasiyanı yalnız "sabit xarakterə malik sistem" kimi deyil, həm də "dinamik xarakterə malik proses" kimi də qəbul etmək olar. Bu məsələ ilə bağlı A.K.Markova yazır: "Motivasiya müəyyən məqsədə nail olmaq üçün özünü və digərlərini fəaliyyətin icrasına vadar etmə, sövqetmə prosesidir".[1] Həmçinin S.L.Rubinşteyn də motivasiyanı "psixika vasitəsilə həyata keçirilən determinasiya prosesi" adlandırır.[2] Psixofizioloq P.B.Simonovun fikrincə isə motivasiya subyekti tələbatların ödənilməsinə doğru yönəlmiş hərəkətlərin, davranış aktlarının icrasına təhrik edən və mərkəzi sinir sisteminin oyanma halı ilə bağlı olan prosesdir.[3] Motivasiyanı fəaliyyəti tənzimləyən psixi proses kimi qəbul edənlərdən biri də A.B.Orlovdur. O, motivasiya anlayışını "bir və ya bir neçə motivin təsiri ilə və ətraf mühitdə mövcud olan müəyyən şərtlər çərçivəsində davranışın idarəedici anı kimi" izah edir.[4] Yəni alimin fikrindən belə məlum olur ki, motivasiya motivdə və motivlə aktivləşən prosesdir.

Təlim motivasiyasının formalaşdırılmasının metodoloji əsaslarına gəldikdə isə, müxtəlif dövrlərdə müxtəlif nəzəri yanaşmalar motivasiya nəzəriyyəsinin metodologiyası qismində çıxış etmiş və hər bir cərəyan növbəti cərəyanın yaranmasına təkan vermişdir. Belə ki, XX əsrin 50-ci illərinin sonlarına qədər əsasını bioloji impulslar nəzəriyyəsindən götürmüş və birbaşa tədris prosesinə gətirilmiş fikirlər ondan ibarətdir ki, tələbələrin müstəqil və yaradıcı fəaliyyətini təmin edən, onların səriştəliliyini, özünə inamını dəstəkləyən mühit daxili motivasiyanı gücləndirir. Tələbələrə təzyiq göstərən, onları daima nəzarətdə saxlayan gərgin şərait isə daxili motivasiyaya mənfi təsir göstərərək onu zəiflədir.[5]

---

[1] Маркова А.К., Орлов А.Б., Фридман Л.М. Мотивация учения и ее воспитание у школьников. М.: Педагогика, 1983, с. 29.

[2] Рубинштейн С.Л. Человек и мир // Методологические и теоретические проблемы психологии. М.: 1969, с. 374.

[3] Симонов П.В. Избранные труды: В 2 томах. Т. 1. Мозг: эмоции, потребности, поведение. М.: Наука, 2004, с. 234.

[4] Орлов А.Б. Развитие теоретических схем и понятийных систем в психологии мотивации // Вопросы психологии, 1989, № 5, с. 29.

[5] Harlow H.F. Learning to love // Am. Science, 1966, № 3, p.39; Ryan R.M. A motivational analysis of self-determination and self-regulation in education / Ames C.Research on motivation in education / C/Ames, R.Ames. V.1, N.Y.: Academic Press, 1985, p. 15-17; Вилюнас В.К. Психологические механизмы биологической мотивации. М.: Изд-во Моск. ун-та, 1986, 206 с.

XX əsrin 60-cı illərində ənənəvi motivasiya nəzəriyyəsinin mexaniki mənzərəsinə reaksiya fonunda yaranmış növbəti şəxsiyyətyönümlü konsepsiyaya görə isə təlim motivasiyasının formalaşmasına təsir edən amillər müəllim və tələbə arasında inam və etimada söykənən psixoloji mühit, əməkdaşlıq münasibətləri, təlimin motivasiya resurslarının aktuallaşdırılması və müəllimdə humanist təlimə adekvat olan fərdi xüsusiyyətlərin inkişaf etdirilməsidir.[1]

Şəxsiyyətyönümlü psixoloji konsepsiyada istifadə olunan "təlim", "tədris" və "öyrənmə" terminləri və bu terminlərin əsasında duran anlayışlar arasındakı uyğunluq əvvəlki konsepsiyalarla müqayisədə daha məntiqi xarakter daşıyır. Bu nəzəriyyəyə görə təlim fəaliyyəti müəllim fəaliyyəti olan tədrisin və tələbə fəaliyyəti olan öyrənmənin sintezidir. Təlim motivasiyasının formalaşdırılmasında isə əsas rolu müəllim və tələbə arasındakı qarşılıqlı münasibət oynayır.[2]

Son dövrlərə gəldikdə isə, A.Allşuler, D.Teybor və C.Makintayr motivasiya nəzəriyyəsində mövcud olan vacib istiqamətlərdən biri kimi psixoanalitik təsəvvürləri təlim prosesinin metodologiyası ilə əlaqələndirmiş və təlimdə uğur motivasiyasının formalaşdırılması prosesini 6 ardıcıl mərhələyə bölmüşlər:

-Tələbələrin diqqətinin tədris materialının məzmununa yönəldilməsi;

-Təlimdə uğur motivinə müvafiq olan müxtəlif oyunlar və xüsusi çalışmalar vasitəsilə tələbələrdə düşünmə, davranma və emosional reaksiya vermə təcrübəsinin yaradılması;

-Təlimdə uğur motivinin müxtəlif komponentlərini ifadə edən terminlərin tələbələr tərəfindən mənimsənilməsi;

-Motivlərin tələbələrin mənəvi dəyərləri, idealları ilə əlaqələndirilməsi;

-Təlim prosesində əldə olunmuş biliklərin tələbələr tərəfindən real təbii situasiyalarda praktik istifadəsi;

-Müəllimin köməyi və nəzarəti olmadan tələbələrin uğur motivi əsasında müstəqil davranışı.[3]

"Təlim motivasiyası" anlayışını didaktik baxımdan konkretləşdirmək və təlim motivasiyasına daxil olan komponentləri müəyyənləşdirmək istiqamətində olan əsas tədqiqatlar R.Qardner və U.Lambert tərəfindən aparıl-

---

[1] Фрейд З. Психология бессознательного. М.: Прогресс, 1990, с. 275-278; Festinger L. Theory of cognitive dissonace. Stanfort: 1962, p. 95.

[2] Хьелл Л. Теории личности / Л. Хьелл, Д. Зиглер. М.: Питер, 1999, с. 319.

[3] Alschuler A.S. Teaching achievement motivation / A.S.Alschuler, D.Tabor, J.Mc Intire. Middletown, Conn, 1970, p. 46-51

mışdır. Alimlər dil, dil daşıyıcıları və dili öyrənilən ölkə haqqındakı təsəvvürlərin dilöyrənən üçün əhəmiyyətini və dilöyrənmə fəaliyyətini müəyyənləşdirən istiqamətlərini, meyllərini yığcam şəkildə "motivasiya" termini altında ümumiləşdirmiş və təlim motivasiyasına daxil olan komponentləri model halına salmışlar.[1] Onların təklif etdiyi bu sistemi sonralar D.Klement və A.Kruidenier genişləndirərək "instrumental meyl" anlayışına daha üç kateqoriyanı (səyahət, dostluq və bilik) əlavə etmişlər.[2]

İ.A.Zimnyaya da təlim motivasiyasına xarici dil fənni istiqamətində yanaşmış və onun yaradılmasının əsas şərtlərini idraki-kommunikativ tələbatların formalaşdırılması, tərbiyəvi, inkişafetdirici və ümumtəhsilverici tədris materialının seçimi, şəxsiyyət və fəaliyyət yönümlü yanaşmanın əsas götürülməsi kimi müəyyən etmişdir.[3]

Bu müəlliflərin dilöyrənənin inteqrativ və instrumental meyllərini bir-birindən fərqləndirməsi elm tarixində mübahisələrə və digər alimlərin fikirlərində ziddiyyətlərə səbəb olmuşdur. Məsələn, N.A.Emelyanova xarici dilin öyrənilməsini əvvəlcədən müəyyən edən və öyrənmə prosesini qabaqlayan aspektləri nəzərə almadığı və həmin aspektləri birbaşa xarici dilin öyrənilməsi prosesində yaranan münasibətlərdən fərqləndirmədiyi üçün R.Qardner modelini natamam hesab edir. Müəllif yazır: "Model daha sabit və affektiv şəxsi xüsusiyyətləri dilin öyrənilməsinə olan birbaşa affektiv reaksiyalardan, yəni situativ münasibətlərdən fərqləndirmir".[4]

Ancaq fikrimizcə, R.Qardner nəzəriyyəsinin üstün cəhəti odur ki, bu nəzəriyyə dilöyrənmə üçün yalnız dil strukturlarının və lüğət fondunun rolu ilə kifayətlənmir. O, bununla yanaşı mədəni aspekti də əsas götürür. Bu nəzəriyyənin tələbinə əsasən dilöyrənən şəxslərin və dili öyrənilən şəxslərin mədəni fərqləri mütləq tədris prosesində nəzərə alınmalıdır.

Dissertasiya işinin "Tələbələrdə təlim motivasiyasının formalaşdırılması baxımından mövcud vəziyyətin didaktik təhlili" adlanan və iki yarım-

---

[1] Gardner, R.C., Lambert W.E. Attitudes and Motivation in Second Language Learning. Rowley, Mass.: Newbury House, 1984, 267 p.

[2] http://books.google.ru/books?id=YiCucWf3XEsC&pg=PA281&dq=Clement+and+Kruidenier,+1985&hl.

[3] Зимняя И.А. Педагогическая психология: Учебное пособие. Ростов н/Д.: Феникс, 1997, с. 309-310.

[4] Емельянова Н.А. Формирование оптимальной мотивации овладения иностранным языкам студентами неязыкового вуза: Дис. ….канд. псих. наук. Нижний Новгород, 1997, с. 63.

fəsildən ibarət olan *II fəslində* proqram və dərsliklərin və ali məktəbdə mövcud olan vəziyyətin təhlili aparılmışdır.

Dil fakültələrinin I-II kurslarında ingilis dili fənninin tədrisində istifadə olunan"Vocabulary in Use"[1] və "New Cutting Edge"[2] adlı dərslikləri təhlil edərkən istifadə olunan əsas meyar dərsliklərin tələbələrin motivasiya sferasına uyğunluq dərəcəsidir. Müasir təlim nəzəriyyələri tədris prosesini tələbəyönümlü istiqamətdə müəyyənləşdirdiyi üçün və dərslik də bu prosesin əsas komponenti olduğundan, onun tərtibində motivasiya ilkin və əsas amil olmalıdır. Çünki, tədqiqat işində təlim fəaliyyətinin psixoloji baxımdan yaranma prosesinin ilkin, başlanğıc mərhələsi elmi-nəzəri ədəbiyyatın (L.S.Vıqotski, N.İ.Jinkin, P.B.Qurviç, K.A.Roqova, İ.A.Zimnyaya) təhlilinə əsaslanaraq məhz motivasiyaedici mərhələ kimi müəyyənləşdirilir. Bu cür motivasiyaedici başlanğıc öz təsirini sonrakı mərhələlərdə də açıq-aydın göstərdiyi üçün bir növ "təlim fəaliyyətinin taleyini həll etmiş olur" və ona görə də əsas amil hesab olunur.

"Vocabulary in Use" adlı dərsliyin I hissəsində leksik mənaların açılmasında müəlliflər müxtəlif üsullardan istifadə etmişlər. Ancaq həmin üsullardan istifadə tezliyi proporsiya baxımından taraz deyil. Belə ki, dərsliyin I hissəsində daha çox izahlı tərcümə üsulundan və nisbətən şəkillərdən, II hissəsində isə daha çox definisiya üsulundan istifadə olunub. Digər üsullara isə nadir hallarda müraciət olunur. Bu da, monotonluğa gətirib çıxardığı üçün, müəyyən müddətdən sonra tələbələrdə dərslik haqqında darıxdırıcı və maraqsız münasibət formalaşdırır.

İlk baxışdan motivasiyaedici üsul kimi müsbət dəyərləndirə biləcəyimiz xüsusiyyət dərslikdə leksik mənaların açılmasında situativ üsuldan və şəkillərdən istifadə olunmasıdır. Ancaq dediyimiz kimi bu ilk baxışdan belə görünür, yazılı şəkildə verilmiş bir və bir neçə cümlənin tərkibində yeni sözlərin işlədilməsi əslində situativlik deyil. E.I.Passovun təbirincə desək, "situasiya subyektiv real gerçəkliklə qarşılıqlı təsirdir, ...onun əsasında nitqi törədən və onun predmetini və məzmununu təyin edən, iki və ya çox

---

[1]English Vocabulary in Use, pre-intermediate – intermediate; London: Cambridge University Press, 2005, 264 p.; English Vocabulary in Use, Upper-Intermediate, London: Cambridge University Press, 2005, 308 p.

[2] Cutting Edge, intermediate, student's book and workbook, with key and mini-dictionary; Pearson, 2005, 175 p.; Cutting Edge, pre-intermediate, student's book and workbook, with key and mini-dictionary, Pearson, 2005, 174 p.

subyektlərarası qarşılıqlı münasibətlərin mikrosistemi durur"[1]. Subyektin real gerçəkliklə qarşılıqlı münasibəti isə motivasiyanın struktur elementi hesab olunur. Deməli, situasiyanı formalaşdıran və yaradan amillər tələbələrin motivləri olmalıdır və o, təlim prosesində təbii şəkildə yaranmalıdır. Leksik vahidlər də son nəticədə həmin situasiyanın tələbi müqabilində işlədilməlidir. Dərslikdə "cansız" şəkildə verilmiş yazılı cümlə situativ mühit yaradaraq leksik vahidin işlənməsini mümkün edə bilməz.

Dərslikdəki çalışmaların böyük əksəriyyəti yalnız yeni sözlər və söz birləşmələrinin məşqinə hesablanmışdır. Çalışmaların şərtləri bizə onların yalnız leksik vərdişlərin formalaşdırılması üçün nəzərdə tutulduğunu deməyə əsas verir. Çox təəssüf ki, biz yalnız "leksik vərdişlər" ifadəsi ilə kifayətlənməli oluruq. Yəni çalışmaların həm də leksik bacarıqları formalaşdırmaq iqtidarında olduqlarını söyləyə bilmirik. Çünki, həmin çalışmaları yerinə yetirərkən tələbələr yalnız oxu və yazı fəaliyyəti ilə məşğul olmaq məcburiyyətindədirlər. Bacarıq səviyyəsi isə tələbədən təqdim olunmuş leksik vahidlərlə bir-biri ilə məzmun baxımdan əlaqədar olmayan cümlələr daxilində manipulyasiya əməliyyatlarını deyil, həm də həmin leksik vahidlərin daha real və autentik məzmun çərçivəsində şifahi istifadəsini, real nitq situasiyalarına müvafiq seçimini, tələbənin kommunikativ məqsədlərinə uyğun işlənməsini tələb edir. Ancaq adıgedən dərslikdə danışıq və eşidib-anlama istiqaməti demək olar ki, nəzərdə tutulmayıb. Tələbə monoton şəkildə ancaq oxuyur və yazırsa, oxuyan və yazan zaman ancaq eyni əməliyyatları yerinə yetirirsə, yəni, ya nöqtələrin yerinə uyğun gələn sözü seçirsə, ya cümlələri yenə də uyğun gələn sözlə tamamlayırsa, ya da növbəti dəfə də sağ və sol tərəflərdən uyğun gələn sözləri seçərək qruplaşdırırsa, bu minvalla da heç bir produktiv fəaliyyətlə məşğul olmursa, onda həmin çalışmaların motivasiyaedici xüsusiyyətindən danışmaq yersizdir.

"Vocabulary in Use" adlı nəşrdən fərqli olaraq "New Cutting Edge" adlı dərslikdə nitq fəaliyyətinin bütün növləri müəlliflər tərəfindən nəzərə alınıb. Dərslikdə və ona əlavə olunmuş iş dəftərində oxu, yazı, danışıq və dinləyib-anlama vərdişlərini formalaşdırmaq və həmin vərdişləri bacarıq səviyyəsinə çatdırmaq iqtidarında olan mətnlərə, şəkillərə, cədvəllər və diaqramlara və xüsusilə də çalışma növlərinə rast gəlmək olar.[2] Nitq fəaliyyətinin növləri arasında uyğunluğun mövcudluğuna görə də həmin dərslik

---

[1]Пассов Е.И. Коммуникативный метод обучения иностранному говорению. М.: Просвещение, 1991, с. 92.

[2] Cutting Edge, pre-intermediate, student's book and workbook, with key and mini-dictionary. London: Pearson, 2005, 174 p.

daha məqsədəuyğundur. Məsələn, əsasən yazı vərdişlərini formalaşdırmaq məqsədi güdən çalışmanı yerinə yetirərkən tələbə ancaq yazı fəaliyyəti ilə məşğul olmur, eyni zamanda yazı üçün material toplamaq məqsədilə oxuyur, seçir, digər tələbələrlə müzakirələr aparır, yəni danışır, şifahi informasiyaları dinləyir, anlayır və ona lazım olan nüansları seçir, öz yazı materialını təqdim edərkən şifahi şərhlər verir və s. Eynilə tələbələrin diqqətini cəlb etmək və onlarda maraq oyatmaq baxımından dərsliyin I və II hissələrində mövzular çərçivəsində verilmiş informasiyalar motivasiyaedici hesab oluna bilər. Məsələn, "Jobs", "Dates and special occasions", "Physical appearance", "Holidays", "Ambitions and dreams", "Hobbies and interests", "Personal characteristics", "Everyday activities", "Work" və s. mövzuların bu tərzdə qoyuluşu informasiyanın "dərslikdən → tələbəyə" doğru birtərəfli istiqaməti, birtərəfli təqdimatı ilə yanaşı, "tələbədən → tələbəyə, tələbədən → müəllimə, tələbədən → qrupa, tələbədən → cəmiyyətə" doğru qarşılıqlı mübadiləsi üçün də şərait yaradır. Bu cür mövzular və tələbələrin özləri, öz şəxsiyyətləri arasında birbaşa əlaqə yaradan çalışmalar əslində müəllimə öz tələbələrinin maraq dairəsini, onların motivasiya sahəsini dəqiq təyin etmək üçün səmərəli bir üsul ola bilər. Bu baxımdan təhlil etdiyimiz dərslikdə tələbələrə öz maraqlarını, tələbatlarını, münasibətlərini, fərdi mövqelərini və xarakterlərini ifadə imkanları vəd edən çalışmalar həm kəmiyyət, həm də keyfiyyət baxımından qaneedici səviyyədədir və bu tip çalışmalar vasitəsilə tələbələrin motivlərinin müəyyən etmək olar. Ancaq motivləri müəyyən etmək hələ onların kompleks şəklində ingilis dili fənninin təliminə səmərəli təsirini təmin etmək deyil. Bu istiqamətdə müsbət nəticələri dəstəkləyəcək, onların funksionallaşması üçün zəmin olacaq didaktik mühit yaradılmalıdır. Motivləri, maraqları və tələbatları soruşulan tələbə əlbəttə ki, özünü təlim fəaliyyətinin vacib subyekti kimi önəmli olduğunu, ona dəyər verildiyini, onun nəzərə alındığını hiss edəcəkdir. Ancaq həmin motivlər, maraqlar və tələbatlar müəyyənləşdikdən sonra unudularsa, sonrakı mərhələlərin əsasını təşkil etməzsə, motivlərin müəyyənləşdirilməsi yolu ilə yaradılmış maraq hələ məqsədə çatmamış tədricən öz təsirini itirəcəkdir. Təhlil etdiyimiz "Cutting Edge" dərsliyinin bizi qane etməyən əsas cəhəti məhz bu amillə bağlıdır. Yəni dərslikdəki müəyyən çalışmalar vasitəsilə motivlər müəyyənləşir və bununla da bitir. Motivin, marağın dəstəklənməsi, tələbatın ödənməsi mərhələsinə keçid müşahidə olunmur.

Bu fəsildə həmçinin problemlə bağlı mövcud vəziyyətin təhlili əsasında I və II kurs tələbələrində ingilis dili üzrə formalaşmış motivasiyanın ümumi

mənzərəsi təsvir edilmiş və müəllimlərin təlim fəaliyyətində motivasiya amilinə nə dərəcədə diqqət yetirdikləri, tələbələrdə ingilis dilinə maraq yaratmaq üçün hansı motivasiyaedici üsullardan istifadə etdikləri aşkarlanmışdır. Tələbələrin motivasiya səviyyəsini təyin etmək və ingilis dili dərslərinin onların maraqlarına nə dərəcədə uyğun olduğunu öyrənmək üçün "münasibət" amili əsas götürülmüşdür.

Ali məktəbdə mövcud vəziyyəti təhlil etməkdə digər məqsədimiz isə yeni motivasiyaedici modelin istiqamətlərini müəyyənləşdirmək, tələbələrdə ingilis dilinə və təlim fəaliyyətinə maraq yaratmaq üçün nələrin, hansı dəyişikliklərin labüd olduğunu təyin etmək olduğundan əsaslandığımız digər amillər tələbələrin "maraq" və "arzu"ları olmuşdur. Beləliklə, biz ali məktəbin dil fakültələrində ingilis dili üzrə təlim fəaliyyəti motivasiyasının formalaşdırılması baxımından mövcud vəziyyəti təhlil edərkən iki yarusdan istifadə etmişik: münasibət və maraq.

Sorğular iki istiqamətdə aparılmışdır. I istiqamət tələbələr üçün nəzərdə tutulmuş və bunun üçün İngilis dili fakültəsinin I və II kurs tələbələrinə (cəmi 12 qrup, 100 tələbə) sorğu vərəqələri paylanmışdır. Tələbələr üçün nəzərdə tutulan sorğu vərəqələrinə aşağıdakı istiqamətlər daxildir:

-tələbələrin ingilis dilinə və ingilis xalqına olan münasibətləri və bu istiqamətdəki arzuları və maraqları;

-tədris üsulları və metodları ilə bağlı mövcud vəziyyət və tələbələrin buna münasibəti, onların arzularına və maraqlarına uyğun üsul;

-tələbələrin ingilis dili dərslərində keçirilən mövzulara olan münasibəti və onları maraqlandıran mövzuların müəyyənləşdirilməsi;

-tələbələrin istifadə olunan əyani vəsaitlərə dair münasibəti və onların bu istiqamətdəki arzuları və maraqları;

-tələbələrin dərslərdə istifadə olunan çalışma növlərinə dair münasibəti və onların bu istiqamətdəki arzuları və maraqları;

-tələbələrin ingilis dili dərslərində istifadə olunan yaradıcı, əyləncəli üsullara və təlim fəaliyyətinin formalarına dair münasibəti və onların bu istiqamətdəki arzuları və maraqları.

Müəllimlər üçün nəzərdə tutulmuş sorğu vərəqəsinə isə onların motivasiya məsələsi ilə əlaqədar təcrübəsini üzə çıxardan suallar daxildir.

Dissertasiyanın "I-II kurs tələbələrində ingilis dilinə marağın yaradılması zamanı təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının səmərəli yolları" adlanan *üçüncü fəsli* üç yarımfəsildən ibarətdir. Burada təlim fəaliyyəti motivasiyasının formalaşdırılmasının praktik istiqamətləri müəyyənləşdirilmişdir. Öncə I-II kurs tələbələri və müəllimlər arasında sorğu

keçirməklə tələbələrin təlim fəaliyyətlərinin kökündə duran məqsədlər əsasında təlim motivasiyası sahəsinə daxil olan ingilis dilinə yiyələnmə motivləri öyrənilmişdir. Çünki, "insanı fəaliyyətə təhrik edən motiv əsasında qarşıya müəyyən məqsədlər qoyulur. Fəaliyyət məhz qarşıya müəyyən məqsədin qoyuluşundan başlanır".[1] Bu baxımdan məqsəd qoymaq bacarığı tələbənin malik olduğu təlim motivasiyasının idraki komponentlərindən biridir və təlim motivasiyası sferasının tamlığını, bitkinliyini əks etdirən göstəricilərdən ən vacibidir.

Sonra həmin motivlərin təsir gücü təhlil olunaraq dominant, yəni təlim fəaliyyəti üçün səciyyəvi olan aparıcı motivlər və ikinci dərəcəli motivlər fərqləndirilmişdir. Daha sonra tələbələrin təlim motivasiyası sferasının komponentləri arasındakı qarşılıqlı keçidlər təyin olunmuşdur. Yəni təlim motivasiyası sferasında baş verməsi labüd olan dəyişikliklərin, təlim motivasiyasının azalması, təlim motivasiyasının stabilliyi və təlim motivasiyasının yüksəlməsi halları təhlil olunaraq aşağıdakılar müəyyənləşdirilmişdir:

-Mənfi motivlərə malik olan tələbələr üçün yiyələndikləri peşənin üstünlüklərini, müsbət xüsusiyyətlərini, ingilis dilinin gözəlliklərini göstərə biləcək tədris mühiti yaradılaraq, onların ingilis dilinə məcburən deyil, daxili maraq əsasında yiyələnmələrinə cəhd edilməlidir. Yəni, mənfi motivlər daxili maraqla əvəzlənməlidir.

-Eynilə hökmranlıq motivi, mənfəət motivi, valideyn motivi və dəb motivinə malik olan tələbələrə təsir göstərərək, sadaladığımız motivlərin II dərəcəli olmasını və öz yerlərini daxili maraq, özünütəhsil və ya ünsiyyət kimi motivlərə verməsi üçün didaktik şərait yaradılmalıdır.

-Daxili maraq, özünütəhsil, ünsiyyət, sosiomədəni, ictimai və peşə motivinə malik tələbələrin təlim fəaliyyəti dəstəklənməli və həmin motivlərin daha stabil mövqeyə keçmələri təmin olunmalıdır.

Sadaladıqlarımızı gerçəkləşdirmək, yəni I və II kurs tələbələrinin motivlərinə, maraq və arzularına uyğun olan didaktik mühiti müəyyənləşdirmək üçün sorğuların nəticələrinə müraciət etmiş və bu əsasda şəkil üzərində oyunlar, musiqi və söz oyunları, krossvordlar, ixtisasla bağlı oyunlar, tapmacalar, qrammatik və fonetik oyunlar, məşhurların təqlidi və televiziya proqramları oyunları, məntiqi oyunlar, onlayn yarışlar və sairələrdən ibarət yeni motivasiyaedici çalışmalar sistemi işlənib hazırlanmışdır.

Ali məktəbdəki probemlə bağlı mövcud vəziyyət və tələbələrin maraqları arasındakı fərqlər, daha doğrusu uyğunsuzluqlar, eyni zamanda I və II

---

[1] Məhərrəmov M.C. İzahlı psixoloji lüğət. Bakı: BDU nəşriyyatı, 1960, s. 64.

kurs tələbələrində ingilis dilinə marağın yaradılması baxımından dərslik və proqramlardakı bir sıra çatışmazlıqlar təklif etdiyimiz yeni motivasiyaedici çalışmalar sistemindən istifadə etməklə təşkil olunan eksperimental tədrisin vacibliyini təsdiqləmişdir. Eksperimentdə İngilis dili fakültəsinin I kursu üzrə 122, 123, 130 nömrəli qruplar və II kursu üzrə 229, 230, 232 nömrəli qruplar kontrol qruplar qismində, I kurs üzrə 132, 141, 144 nömrəli qruplar və II kurs üzrə 238, 241, 243 nömrəli qruplar isə eksperiment qruplar qismində iştirak etmişdir. Eksperiment ənənəvi olaraq üç mərhələ üzrə aparılmış və hər bir mərhələ konkret məqsədə xidmət etmişdir.

Birinci, müəyyənedici mərhələnin məqsədinə müvafiq olaraq I-II kurs tələbələrinin motivasiya səviyyəsini yoxlamaq üçün təcrübəli müəllimlərdən ibarət ekspert qrupu təşkil olunmuşdur. Ekspert qrupu 2010-2011-ci tədris ilinin I semestrində (120 saat) eksperiment və kontrol qrup tələbələrinin ingilis dili dərslərində iştirak edərək tələbələrin təlim fəaliyyətini müşahidə etmiş və onların motivasiya səviyyəsini "təlim fəaliyyətinə olan münasibət", "fəal öyrənmə fəaliyyəti" və "müstəqil öyrənmə fəaliyyəti" meyarları əsasında təhlil etmişlər. Əldə olunan nəticələrin təhlili göstərmişdir ki, ilkin müəyyənedici mərhələdə eksperiment və kontrol qrup tələbələrinin motivasiya səviyyələri təxminən eyni olmuşdur.

I-II kurs tələbələrinin üçdə bir hissəsindən çoxunun təlim fəaliyyəti üzrə motivasiya səviyyəsinin aşağı olması faktı ilə qane olmayaraq, onların motivasiya səviyyəsini qaldıracaq, təlim fəaliyyətinə daxili maraq yaradacaq yeni didaktik modeli və motivasiyaedici çalışmalar sistemini sınaqdan keçirmək məqsədilə II semestrdə (120 saat) öyrədici eksperiment keçirilmiş və burada yalnız eksperiment qruplar iştirak etmişdir. Didaktik modelin tərtibində tələbələrin sorğu vərəqələrində qeyd etdikləri arzu və maraqları əsas götürülmüşdür. Belə ki, onları ingilis xalqının mədəniyyəti, sosial həyatı və ədəbiyyatı daha çox maraqlandırdığı üçün öyrədici eksperiment zamanı bu istiqamətə üstünlük verilmiş, ana dilindən mümkün qədər az istifadə olunmuş, səhvlərin düzəldilməsində müəllim və tələbələrin birgə iştirakı təmin olunmuş, səhvlər təbii hal kimi qəbul olunmuş, qrammatik qaydalar induktiv yolla izah olunmuş, yeni sözlər situasiya və kontekst daxilində öyrədilmiş, motivin tələb etdiyi situativ məzmuna, situativ komponentə malik tədris materialından istifadə olunmuş, tərkibində ünsiyyət elementləri mövcud olan, kommunikativ məzmuna malik tədris materialından istifadə olunmuş, real ünsiyyət mühiti yaradılmış, diqqət əsasən dilin məna və məzmun tərəfinə yönəldilmiş, ancaq formal tərtibat da yaddan çıxmamışdır. Belə ki, informativ və situativ elementlər şəkillər, realilər, videolar

və s. vasitəsilə vurğulanmış, yeni informasiya yalnız mətn formasında deyil, multimedia formasında da təqdim olunmuşdur. Bundan başqa təqdim edilmiş informasiyanın sabit xarakterdə olmamasına, yəni tələbənin sərbəst şəkildə əlavə və dəyişikliklər edə bilməsinə, təlim prosesinin müstəqillik və təşəbbüskarlıq mühitində təşkil olunmasına cəhd edilmişdir. Bu yolla müəllimin dərsin təşkiledici və istiqamətləndirici siması, tələbələrin isə tədqiqatçı və yaradıcı subyektlər olmasına, biliklərin əldə olunmasında tələbələrin fəal şəkildə iştirak etməsinə, maraq oyandırıcı vasitə kimi tədqiqatların aparılmasına və layihələndirilməsinə şərait yaradılmışdır. Bunun üçün əsasən problem-situasiyalardan istifadə olunmuş və elə problemlər seçilmişdir ki, tələbə onu həll etmək üçün malik olduğu bilik bazasından əlavə biliklər əldə etməyə məcbur olsun. Bu zaman yaşanan əqli gərginlik, çətinliklərin aradan qalxması, problemlərin həlli, fəaliyyətin nəticəsinin gözönündə olması onlarda məqsədli şəkildə maraq oyatmağa hesablanmışdır.

Tədris materialının seçimində sosio-mədəni ünsiyyət sferası ilə bağlı məzmun və linqvistik formalara daha çox üstünlük verilmiş, sosio-mədəni komponentlər vurğulanmış, autentik şəkildə təqdim olunmuşdur. Xarici dil fənninə maraq yaratmaq, təlim prosesini tələbələrin motivləri əsasında təşkil etmək üçün "tələbənin yeni cəmiyyətə, yeni sosial situasiyalara inteqrasiya olunmaq arzusunu, əcnəbi ideya və dəyərlərlə, müxtəlif mədəni üslublar və istiqamətlərlə tanışlıq arzusunu"[1] diqqət mərkəzində saxlamış, dili və mədəniyyəti vəhdət şəklində tədris etməyə çalışmışıq. Məqsəd tələbələrdə təlim motivasiyasını yaratmaq olduğu və tələbələrin ingilis dilinə yiyələnmə motivlərindən biri də məhz sosio-mədəni aspekt ilə bağlı olduğu üçün, ingilis dilinin tədrisi üçün material seçərkən həmin materialın məzmununa ingilis xalqının etnopsixoloji xüsusiyyətləri, əxlaqi dəyərlər sistemi, ümumbəşəri dəyərlər sistemindəki yeri, bədii inkişaf səviyyəsi, adət-ənənələri, realilər, nitq etiketi, rituallar, sosial simvollar, nonverbal ünsiyyət davranışı ilə bağlı olan komponentlər daxil edilmişdir. Yəni, əgər tələbənin ingilis dilinə yiyələnmə motivlərindən biri onun digər mədəni cəmiyyətin sosio-mədəni konteksti, baxışları və dəyərləri ilə tanış olmaq istəyidirsə, bu amillər materialin seçimində və çalışmalar sisteminin yaradılmasında nəzərə alınmalıdır.

[1]Axundova Q.V. Xarici dilin tədrisində sosio-mədəni səriştənin vacibliyi məsələsinə dair / Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransının materialları. ADU, 2010, s. 362-363.

Mənfi motivlərə malik olan tələbələrə inandırma, təlqin etmə, təsir etmə kimi üsullardan istifadə edərək yiyələndikləri peşənin üstünlükləri, müsbət xüsusiyyətləri, ingilis dilinin gözəllikləri izah olnmuş, onların ingilis dilinə məcburən deyil, daxili maraq əsasında yəyələnmələrinə cəhd edilmişdir. Təlimin əhəmiyyəti, şəxsiyyətin inkişafı və formalaşması üçün verə biləcəyi fayda misallar gətirməklə, biliyi və çalışqanlığı sayəsində yüksək nailiyyətlər əldə etmiş insanları nümunə göstərməklə, tələbələrin təlim fəaliyyətində əldə edəcəklərinin onların gələcək peşə fəaliyyətindəki yerini göstərməklə onlara şərh olunmuşdur.

Təklif etdiyimiz yeni didaktik modelin və motivasiyaedici çalışmalar sisteminin səmərəliliyi III mərhələdə yoxlanılmış, nəticələr müəyyənedici mərhələnin nəticələri ilə müqayisə olunaraq aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:

Cədvəl 3.3

Müəyyənləşdirici və yoxlayıcı eksperimentin nəticələrinin müqayisəsi

| Yuxarı səviyyə | | | | Orta səviyyə | | | | Aşağı səviyyə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kontr.qr. | | Eksper.qr. | | Kontr.qr. | | Eksper.qr. | | Kontr. qr. | | Eksper.qr. | |
| Eks. əvvəl | Eks. sonra | Eks. əvvəl | Eks. sonra | Eks. əvvəl | Eks. sonra | Eks. əvvəl | Eks. sonra | Eks. əvvəl | Eks. sonra | Eks. əvvəl | Eks. Sonra |
| 31.4% | 35.3 % | 28.4% | 41,2% | 31.1 % | 34,3 % | 33.1% | 42,3 % | 37.4 % | 30.3 % | 38.4 % | 16,7 % |

Cədvəldə qeyd olunmuş nəticələr öyrədici eksperimentdən sonra eksperiment və kontrol qrup tələbələrinin motivasiya səviyyələri arasında yaranmış fərqi nümayiş etdirir. Öyrədici eksperimentdə yalnız eksperiment qruplar iştirak etdiyinə görə, həmin tələbələrin motivasiya səviyyəsində yüksəliş müşahidə olunur. Bu faktlara söykənərək yeni didaktik model və motivasiyaedici çalışmalar sisteminin eksperiment qrup tələbələrinin motivasiya səviyyəsinə müsbət təsir göstərdiyini və onların təlim fəaliyyətinə olan münasibətinin müsbət yönümdə dəyişdiyini deyə bilərik.

Tədqiqat işinin sonunda əldə etdiyimiz konkret nəticələr aşağıdakılardır:

1. Motivasiyanın tələbatın dərk olunması anında başlayan və motivin həyata keçirilməsi anında başa çatan bir proses olduğunu ön plana çəkdikdə, yəni həm də motivin aktuallaşması mexanizmi kimi nəzərdən keçirdikdə,

onun sabit xarakterə malik sistematik və statik tərəfindən əlavə, dinamik xarakterə malik prosessual xüsusiyyəti də aşkarlanır.

2. “Motiv” və “motivasiya” anlayışlarının eyniləşdirilməsi əsassızdır. “Motiv” motivasiya sisteminin və ya prosesinin yalnız bir hissəsi olduğu üçün və motivasiyanın strukturuna həm də tələbatlar, maraqlar, cəhdlər, məqsədlər və ideallar daxil olduğu üçün bu cür yanaşma “motivasiya” anlayışının dəqiq ifadə olunması üçün yetərsizdir. Motivlər fəaliyyətin daxili və xarici təhrikedici qüvvələridir. Motivasiya isə həmin təhrikedici qüvvələrin sistemidir. Motivasiya anlayışının təməlində subyekti davranışa təhrik etmə, təhrik olunan davranışın istiqamətini təyin etmə və həmin istiqamət üzrə davranışın davam etməsi kimi üç əsas istiqamət durur.

3. Elmi-nəzəri ədəbiyyatda “təlim motivasiyası” anlayışının “münasibət” kateqoriyası adı altında müəyyənləşdirilməsi daha dominant xarakter daşıyır. Ancaq təlim motivasiyasını sadəcə olaraq təlim haqqında müsbət münasibətin formalaşması və ya təlim haqqında mənfi münasibətin zəifləməsi prosesi kimi məhdudlaşdırmaq düzgün deyil. Bura həm də motivasiyanın məzmununun mürəkkəbləşməsi və məzmuna daha bitkin və formalaşmış, bəzən də bir- birinə əks mövqelərdə olan yeni münasibətlərin daxil olunması prosesləri aiddir.

4. Fəaliyyətə olan münasibətə görə motivlər xarici və daxili olaraq iki yerə bölünür. Həm xarici (sosial), həm də daxili (idraki) motivlər də öz növbəsində müxtəlif səviyyələrə bölünür. Sosial motivlər geniş sosial, dar sosial və ya pozisiya motivləri, sosial əməkdaşlıq motivləri kimi səviyyələrə ayrılır. İdraki motivlər isə daxili səviyyəsinə görə geniş idraki, təlim-idraki və özünütəhsil motivlərinə bölünür. Motivlər zaman kəsiyi baxımından da aktual və potensial motivlər olaraq iki yerə bölünür. Fəaliyyətin icrasında təsiri daima hiss olunan motivlər, yəni daima işlək olan motivlər aktual motivlər adlanır. Yalnız müəyyən məqamlarda və konkret şərait yarandıqda oyanan motivlər isə potensial motivlər adlanır.

5. “Vocabulary in Use” adlı dərslikdəki çalışmaların böyük əksəriyyəti yeni sözlər və söz birləşmələrinin məşqinə hesablandığı, danışıq və eşidib-anlama istiqaməti demək olar ki, nəzərdə tutulmadığı və hətta motivasiyaedici hesab edilə biləcək çalışmalar da həmçinin dərsliyin ana xəttinə sadiq olaraq reseptiv xarakter daşıdığı üçün ingilis dili dərslərində dərslik deyil, dərs vəsaiti kimi istifadə oluna bilər.

6. “New Cutting Edge” adlı dərslikdə nitq fəaliyyətinin bütün növləri müəlliflər tərəfindən nəzərə alınsa da, dərslikdə və ona əlavə olunmuş iş dəftərində oxu, yazı, danışıq və dinləyib-anlama vərdişlərini formalaş-

dırmaq və onları bacarıq səviyyəsinə çatdırmaq iqtidarında olan mətnlərə, şəkillərə, cədvəllər və diaqramlara, xüsusilə də motivasiyaedici çalışmalara rast gəlinsə də, həmin çalışmalar vasitəsilə motivlər müəyyənləşir və bununla da bitir. Motivin dəstəklənməsi, tələbatın ödənməsi mərhələsinə keçid müşahidə olunmur.

7. Proqram və təqvim planlarında eyni bölməyə daxil edilən dərslər ardıcıl şəkildə deyil, müxtəlif yerlərdə təzahür edir, müxtəlif bölmələrə daxil olan mövzular əlaqəsiz şəkildə bir dərsdə birləşdirilir, iki saat ərzində nəzərdə tutulmuş dərslərin sayı həddindən artıq çoxdur və eyni bir altmövzuya təqvim planında və proqramda dəfələrlə müraciət olunur, digər mövzular isə tamamilə unudulur.

8. Tələbələrin maraqlarına uyğun olmayan mövcud vəziyyət əsasən dərslərdə ana dilindən istifadə olunması, qrammatik qaydaların deduktiv yolla izahı, yeni sözlərin təcrid olunmuş şəkildə öyrədilməsi, uğurlu cavablar, fəal cəhdlər və yaradıcı fikirlərin bir çox hallarda dəstəklənməməsi, qrammatik, fonetik qaydalar və sözlərin tərcüməsinin əsas istiqamət olması, yəni əsasən qrammatik-tərcümə metodundan, avtomatlaşdırılmış və əzbərlənmiş linqvistik modellərdən istifadə edilməsi, müəllimin dərsin aparıcı siması, tələbənin isə passiv dinləyicisi olması, biliklərin müəllim tərəfindən hazır şəkildə verilməsi ilə bağlıdır.

9. Müəllimlərin bir qrupu motivasiyanı "dilin öyrənilməsində marağın yaradılması", "insanda maraq oyadan uğurlu taktika", "insanların müəyyən sahələrdə hər hansı bir işə marağını artıran üsul" kimi izah edir, bir qrup müəllimlər motivasiyanı "hiss" anlayışı ilə eyniləşdirir, digər bir qrup isə motivasiyanı "daxili həvəs", "başqalarını həvəsləndirmək", "yeniliyə maraq", "cəlbedici amil", "rəğbətləndirmə", "tələbələrin istiqamətləndirilməsi", "yaxşı əhval-ruhiyyə" kimi tamamilə fərqli mənalarda şərh edir. Hətta bəzi müəllimlər motivasiyanı "oxu bacarıq və vərdişlərinin istənilən səviyyəyə yüksəldilməsi", "inteqrasiya", "yoxlama və qiymətləndirmə" kimi izah edirlər. Sorğuda iştirak edən 50 müəllimdən yalnız üçü motivasiyanı insan fəaliyyətinin vacib bir elementi, insanı fəaliyyətə təhrik edən, sövq edən səbəb və ya amil kimi dəyərləndirir.

10. Eksperimentin nəticələri göstərir ki, öyrədici mərhələdən sonra kontrol qruplarda yuxarı və orta motivasiya səviyyəsinə malik tələbələrin sayı orta hesabla 7.1%, eksperiment qruplarda isə 22% təşkil edir. Bu faktlar öyrədici eksperimentin tələbələrin motivasiya səviyyəsinə müsbət təsir göstərdiyini və irəli sürdüyümüz fərziyyəni sübut edir.

Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:


1. Dil fakültələri tələbələrində motivasiyanın yaradılması məqsədilə autentik materiallardan istifadə etməyin rolu haqqında // Elmi xəbərlər. Bakı: ADU, 2008, № 6, s.412-414.
2. Xarici dillərin tədrisində çalışmaların rolu və yeri haqqında // Dil və ədəbiyyat. Bakı: BDU, 2008, № 5 (65), s.205-207.
3. İngilis dilinin xarici dil kimi tədrisində motivasiyanın rolu və yeri // Elmi xəbərlər. Bakı: ADU, 2011, № 2, s. 322-325.
4. Motivasiyanın yaradılmasında əyaniliyin rolu / Xarici dillərin tədrisinin aktual problemləri. IV Respublika elmi konfransının materialları. Bakı: ADU, 2011, s. 187-188.
5. О некоторых путях повышения уровня мотивации студентов языкового вуза // Педагогический вестник Казахстана. Павлодар, 2011, № 1, с. 157-162.
6. Xarici dil təliminə motivasiyanın formalaşdırılmasının psixoloji əsasları // Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2012, № 2, s.3-8.
7. Xarici dillərin tədrisi zamanı motivasiyanın yaradılması məqsədilə çalışmaların rolu / Tətbiqi dilçiliyin müasir problemləri, Beynəlxalq konfransın materialları. Bakı: ADU, 2012, s. 98-99.

Фируза Адалат гызы Рзаева

# МОТИВАЦИЯ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ ИНТЕРЕСА СТУДЕНТОВ К ИЗУЧЕНИЮ АНГЛИЙСКОГО ЯЗЫКА
(на материале I-II курсов языковых факультетов)

## Резюме

Данная диссертационная работа, состоящая из введения, трех глав, заключения, приложения и списка использованной литературы посвящена разработке системы методической работы по повышению мотивации студентов к изучению английского языка.

Во введении обосновываются актуальность и новизна темы, определяются цели и задачи, стоящие перед данной диссертацией, формируются основные положения, выносимые на защиту, освещаются объект исследования, а также его теоретическая и практическая значимость. Здесь же определяются методы исследования, а также даются сведения о материале диссертации, апробации исследования и его структуре.

Первая глава работы посвящена исследованию психологических, методических и дидактических основ формирования мотивации у студентов (I и II курсы), изучающих английский язык. Здесь рассматриваются пути и методы повышения интереса к английскому языку. Особое внимание уделяется проблеме создания системы упражнений, способствующей повышению уровня мотивации и интереса у студентов к изучению английского языка. Подробно освещаются разные мнения исследователей о дефиниции «мотив» и «мотивация» и значении мотивации как вспомогательного фактора в усвоении иностранного языка. Наиболее популярны две модели мотивации: инструментальная и интегративная, которые рассматриваются в этой главе.

Вторая глава данной работы состоит из двух частей: в первой части анализируются учебники и учебные пособия, используемые в азербайджанской аудитории с целью выявить степень влияния контекстуального материала к повышению мотивации студентов.

Во второй части этой главы автор проводит критический анализ системы и методов работы преподавателей, на начальном этапе обучения. С помощью кратких бесед со студентами и преподавательями, наблюдением за учебным процессом и проведением констатирующего

опроса, исследователь выявляет положительные и отрицательные факторы, определяющие степень мотивированности студентов.

В третьей главе разработана и внедрена путем опытного обучения методика формирования и развития мотивации у студентов младших курсов при изучении английского языка. Здесь же характеризуются, этапы, задачи, содержание опытно-экспериментальной работы и анализируются результаты проведенного исследования. Представлен комплекс упражнений способствующих формированию мотивации у студентов младшего курсов при изучении английского языка.

В заключении излагаются основные итоги исследования, формулируются обшие выводы, отмечается перспектива дальнейшего использования полученных результатов.

Приложение содержит материалы, отражающие содержание опытно-экспериментальной работы.

Firuza Adalet Rzayeva

# MOTIVATION AS A MEANS OF INTEREST FORMATION IN STUDENTS LEARNING ENGLISH
(on the material for the I-II year students of language faculties)

## Summary

The dissertation consisting of an introduction, three chapters, a conclusion, the list of used literature and supplementary material is devoted to the investigation of the ways and techniques for increasing students motivation for learning English.

The introduction comprises the actuality of the theme, its scientific novelty, aims and purposes of the work, theoretical and practical significance, methods of investigation and specifies the structure of the dissertation.

The first chapter deals with the psychological, methodological and didactic bases of formation of motivation for the I-II year students learning English.

This chapter explores different ideas on the definition of "motive" and "motivation" and the significance of motivation as a contributing factor in a foreign language acquisition. Motivation is defined as the learner's orientation with regard on the goal of learning a foreign Language. Both forms (integrative and instrumental) of motivation are examined in the light of research.

The second chapter is divided into two sub-chapters: the first one presents the thorough analyses of the text books used in teaching English to the Azerbaijani students. The purpose of this study is to determine the content and variation of language strategies for the formation of motivation in the students.

The second sub-chapter deals with the critical analysis of the system of teaching and language teaching methods used in teaching English in the I and II courses. This study is one of the first to investigate the relationships among motivational characteristics of the students, the use of teaching strategies as viewed by both the teacher and the students and the level of the teacher's motivation. It also investigates the role of motivation in foreign language learning and the factors that might affect students'

motivation. The motivation test (questionnaire) was developed in order to see how motivation might affect the students' acquisition of English.

The last chapter, the main target centre of the servey covers some theoretical and practical problems conserning motivation and a detailed description of the experimental teaching aimed at the formation and development of student motivation in foreign language learning. The results of the experiment carried out by the author are also described in this chapter.

The basic results of the research work are summarized in the conclusion.

Çapa imzalanıb:  25.02.2013
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks  596 21 44
*e-mail:* *mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ФИРУЗА АДАЛАТ гызы РЗАЕВА

# МОТИВАЦИЯ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ ИНТЕРЕСА СТУДЕНТОВ К ИЗУЧЕНИЮ АНГЛИЙСКОГО ЯЗЫКА
(на материале I-II курсов языковых факультетов)

5801.01 – Теория и методика обучения и воспитания
(Методика преподавания английского языка)

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание учёной степени
доктора философии по педагогике

Баку – 2013